# M.F.AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ BEYNƏLXALQ ƏLAQƏLƏRİ: TÜRKSOY,CENL, İFLA

**Ulduz Manafova**
*Kitabxana-resursları və informasiya-axtarış sistemləri kafedrasının müəllimi, dissertant*
*Ulduz_xanim@mail.ru*

***Xülasə:*** *Türk Mədəniyyəti və İncəsənətinin İnkişafı Üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) Bir sıra türk xalqları (tatarlar, başqırdlar, çuvaşlar və b.) Rusiya Federasiyası tərkibində qalmaqla milli-ərazi muxtariyyəti hüquqlarını xeyli genişləndirdilər. Bu isə, öz növbəsində türk dövlət qurumları arasında daha sıx ədəbi-mədəni, elmi, iqtisadi əlaqələrin yaradılması zərurətini irəli sürdü. Yaranmış yeni əlverişli şərait eyni kökdən olan müştərək türk mədəniyyəti və incəsənətinin vahid təşkilatının yaranmasına səbəb oldu. Həmin təşkilat bu gün də uğurla fəaliyyət göstərən beynəlxalq TÜRKSOY təşkilatıdır – Türkdilli ölkələr arasında qurulan ilk beynəlxalq təşkilat olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatıdır. Sovet İttifaqı dağıldıqdan sonra müstəqilliklərini qazanmış Türk dövlətlərinin regional inteqrasiya məsələləri aktual xarakter almışdır. Müasir dövrümüzdə müstəqil Türk dövlətləri həm ayrı-ayrılıqda, həm də birgə çoxtərəfli münasibətlərdə, yəni beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərirlər. Osmanlı dövləti dağıldıqdan sonra öz müstəqilliyini qoruyub saxlaya bilən, uzun müddət dünya xəritəsində yeganə Türk dövləti olaraq mövcud olan Türkiyə Cümhuriyyətinin regional inteqrasiyanın təşəbbüskarı kimi çıxış etməsi gözlənilən bir addım idi. Yeni müstəqillik qazanmış Türk dövlətləri də istər iqtisadi, istərsə də siyasi baxımdan Qərb institutlarına uğurla inteqrasiya etmiş Türkiyənin təcrübəsindən yararlanmaqda maraqlıdırlar. Bu mənada TÜRKSOY kimi təşkilatın fəaliyyəti diqqətə layiqdir.*
***Açar sözlə:*** *Milli Kitabxana, beynəlxalq əlaqələr,* TÜRKSOY, CENL, İFLA.

**Giriş.** Türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. TÜRKSOY-un yaradılması haqqında ilkin fikirlər hələ 1992-ci ildə irəli sürülmüşdür. Bu təşkilatın yaradılması ilə bağlı Bakı və İstanbul şəhərlərində bir sıra görüşlər keçirilmişdir.

TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə həmin ölkələrin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır. Təşkilatın Nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. TÜRKSOY-un əsas

üzvləri Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır. Qalan 8 üzvlər isə əsasən müşahidəçi qismində iştirak edirlər.

Sonralar TÜRKSOY haqqında Müqaviləyə müşahidəçi ölkələr simasında Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauziya respublikaları da qoşulmuşlar. Buna baxmayaraq, bu üzvlər də əsas üzvlər kimi eyni hüquqa və səlahiyyətə malikdirlər. Ümumiyyətlə, TÜRKSOY-un fəaliyyətində demokratik prinsiplər əsas götürülür. Yəni səsvermədə 8 müşahidəçi ölkə də əsas 6 üzvlər kimi eyni səsvermə hüququna malikdirlər.

TÜRKSOY-un yaradılması zərurəti ondan irəli gəlmişdir ki, bu təşkilatı yaradan ölkələrin dilləri, xalqları, mədəniyyətləri bir-birinə çox yaxın idi və bəzi xalqların hətta dinləri də eyni idi. Məlumdur ki, bəzi türk xalqları müxtəlif dinlərə sitayiş edirlər. Ancaq TÜRKSOY-un yaradılmasında türkdilli xalqların əsasən din deyil, dil prinsiplərinə üstünlük verilmişdir.TÜRKSOY təşkilatı türkdilli ölkələrin daxili və xarici siyasətindən, dövlət strukturlarının siyasi yönümündən asılı olmayaraq, onların mədəniyyət və incəsənət sahəsində regional birliyini həyata keçirir.

TÜRKSOY-un üzv ölkələri onun fəaliyyətinin həyata keçirilməsində bərabər hüquqlara malikdirlər. TÜRKSOY-un ən yüksək orqanı üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasıdır. Təşkilatın qərarları ölkələrdə növbə ilə keçirilən mədəniyyət nazirlərinin Daimi Şurasının toplantısında təsdiq olunur. Toplantılararası müddətdə təşkilata nazirlər sırasından seçilmiş Baş direktor rəhbərlik edir. Baş direktorun aparatında işçi qrupundan əlavə hər ölkədən bir nümayəndə fəaliyyət göstərir. TÜRKSOY-un Baş direktorluğu Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində yerləşir; rəsmi dili türk dilidir.

1993-cü ilin ikinci yarısından sonra Azərbaycan dövləti tərəfindən TÜRKSOY-un fəaliyyətinə diqqətin artması tezliklə bu təşkilatın işində Azərbaycan Respublikasının rolunu xeyli gücləndirdi. Azərbaycan nümayəndələrinin təşkiletmə işində fəal iştirakı təşkilatın fəaliyyətinin məqsədyönlü qurulmasında getdikcə daha çox özünü göstərirdi. Əgər TÜRKSOYun yarandığı ilk vaxtlarda təşkilatın fəaliyyətində əsas ağırlıq mərkəzi Türkiyə Cümhuriyyətinin üzərinə düşürdüsə, 1994-1995-ci illərdən başlayaraq vəziyyət nisbətən bərabərləşdi, yəni, ağırlıq mərkəzi həm də digər türk respublikalarının, xüsusən də Azərbaycanın üzərinə düşdü.

Doğrudur, TÜRKSOY-un hələ II toplantısı (30 noyabr-2 dekabr, 1992) Bakıda keçirilmiş və təşkilatın fəaliyyətini gücləndirməyə yönəldilən mühüm qərarlar qəbul etmişdi. 1996-cı il noyabrın 6-7-də Bakıda türk xalqlarının birliyi, ədəbi-mədəni əlaqələri ilə əlaqədar üç mühüm tədbirin (TÜRKSOY-un VIII toplantısı, türk dünyası yazıçılarının III qurultayı və Məhəmməd Füzulinin 500 illik yubileyinin yekun tədbirləri) keçirilməsi artıq onu sübut edirdi ki, Azərbaycan türk dünyasının liderlərindən birinə çevrilməkdədir. Bu baxımdan Azərbaycan mədəniyyət naziri Polad Bülbüloğlunun təşəbbüskarlığı və işgüzarlığı daha çox diqqəti cəlb edirdi. Elə bu keyfiyyətlərin və üstəlik də onun təşkilatçılığının



nəticəsi idi ki, artıq TÜRKSOY-un V toplantısında (28 may-3 iyun 1994-cü il, Bişkek, ÇolpanAta) Polad Bülbüloğlu təşkilatın Baş direktoru seçildi.

2003-2004-cü illər Qazaxıstanın mədəniyyət naziri, 2005-ci ildən Qazaxıstan Respublikasının BMT-də mədəni-sosial məsələlər üzrə təmsilçisi

Düsen Korabay oğlu Kaseinov 28 may 2008-ci ildə TÜRKSOY-un Daimi Şurası tərəfindən TÜRKSOY-un başqanı seçilib.Baş direktor TÜRKSOY-un bütün fəaliyyətinə cavabdehlik daşıyır, onu beynəlxalq tədbirlərdə təmsil etmək, müqavilələr imzalamaq hüququna malikdir.

Təşkilat struktur etibarı ilə iki komitəyə bölünüb: Mədəniyyət və incəsənət tədbirlərinin birgə keçirilməsi üzrə Komitə, inzibati və hüquqi təmsilçilər üzrə Komitə. Baş direktor TÜRKSOY-un bütün fəaliyyətinə cavabdehlik daşıyır, onu beynəlxalq tədbirlərdə təmsil etmək, müqavilələr imzalamaq hüququna malikdir

Təşkilat struktur etibarı ilə iki komitəyə bölünüb: Mədəniyyət və incəsənət tədbirlərinin birgə keçirilməsi üzrə Komitə, inzibati və hüquqi təmsilçilər üzrə Komitə.TÜRKSOY təşkilatının əsas məramları aşağıdakılardır:

– Türk dilində danışan xalqlar, ölkələr və etnik qruplar arasında mədəni əlaqələrin inkişafetdirilməsi;

– Türk mədəniyyəti nümunələrinin araşdırılması, öyrənilməsi, qorunması və dünyaya çatdırılması;

– Türk xalqalarının mədəniyyətində tarixi, siyasi və coğrafi səbəblərdən və xarici ölkələrin təsiri altında yaranmış fərqlərin aradan qaldırılması;

– Türk mədəniyyətinin müştərək olduğunun sübuta yetirilməsi;

– Türk mədəniyyətinin digər mədəniyyətlərin zərərli təsirindən qurtarılması və onun öz mənbələrinə qaytarılması;

– Coğrafi məkan cəhətdən geniş ərazidə yaşayan türk dövlətiləri və toplumları arasında əlifba və dilin saxlanılması;

– Dünya mədəniyyətində mühüm yer tutan türk mədəniyyətinin digər yerlərdə də yayılması;

– Türk mədəniyyət, incəsənət və arxiv sənədlərinin qorunması üçün mərkəz yaradılması;

– Türk dünyasının görkəmli tarixi şəxslərinin, mütəfəkkir, şair və yazıçılarının, habelə digər böyük şəxsiyyətlərinin bütün dünyaya tanıtdırılması və s.

Bu məqsədlərə nail olmaq naminə TÜRKSOY aşağıdakı fəaliyyət sahələrində tədbirlər həyata keçirir(funksiyaları):

– mədəniyyət və incəsənət sahəsində türkdilli xalqlar arasında əlaqələri inkişaf etdirir və möhkəmləndirir, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsini təmin edir;

– türkdilli xalqların ümummənəvi sərvətlərinin, tarixi irsinin, ədəbiyyat və incəsənət nümunələrinin, idmanın ənənəvi növlərinin və xalq oyunlarının aşkara çıxarılmasına, saxlanmasına, öyrənilməsinə, inkişafı və təbliğinə yönəldilmiş tədbirlər həyata keçirir;

– türkdilli ölkələrin mədəniyyət və incəsənətinin ən yaxşı nailiyyətlərini yayan radio və televiziya proqramlarının, sənədli, video və kinofilmlərin yaradılması üçün sifarişləri yerinə yetirir;

– teatr, musiqi, opera və balet sənəti sahəsində festival və musabiqələri təşkil edir, digər profilli strukturların keçirdiyi oxşar tədbirlərdə iştirak edir;

– türkdilli ölkələrin təsviri və plastik incəsənətinin inkişafına yönəldilmiş sərgiləri, rəsm sərgilərini və digər tədbirləri həyata keçirir;

– dövri və birdəfəlik mətbu məhsulu nəşr edir;

– ümumtürk tarixinin önəmli hadisələrinin, türkdilli ölkələrin dil, ədəbiyyat, mədəniyyət və incəsənətinin inkişafına əhəmiyyətli töhfələr vermiş görkəmli şəxsiyyətlərin ildönümlərinə həsr olunmuş yubileyləri, xatirə gecələrini və digər kütləvi tədbirləri təşkil edir;

– TÜRKSOYun məqsəd və vəzifələri çərçivəsində beynəlxalq elmi konfranslar, simpoziumlar, diskussiyalar və i.a. keçirir.

– Mədəniyyət, incəsənət, təhsil və i. a. sahəsində digər beynəlxalq və milli təşkilatlarla içtimai strukturlar və hərəkatlarla qarşılıqlı əlaqələr yaradır; birgə proqramların həyata keçrilməsində onlarla əməkdaşlıq edir.

XI yüzilliyin böyük zəka sahiblərindən olan Mahmud Kaşqarlının "Divanü lüğat-it-türk" ("Türk dillərinin sözlüyü") adlı əsəri dünya dilçilik elminin ən nadir incilərindən və türkologiyanın başlıca dayaqlarından biridir. Təkcə türk dillərinə aid bir sözlük olmaqla məhdudlaşıb qalmayan bu dahiyanə əsər ümumtürk mədəniyyətinə, tarixinə, etnoqrafiyasına, folkloruna, mifologiyasına, çoğrafiyasına və s. aid əvəzsiz bir qaynaqdır, prof. P.K.Juzenin dediyi kimi, bir "türk ensiklopediyası"dır.

Əhməd Yəsəvi – XI əsrin məşhur mütəfəkkir-şairi, ortaq türk ədəbiyyatında ilk mütəfəkkirlərdən, türk dilində sufizm ədəbiyyatının ilk yaradıcılarından. Orta Asiya Türkləri arasında İslamı yayan, Anadolunun türkləşməsində və müsəlmanlaşmasında böyük rolu olan Əhməd Yəsəvinin doğum tarixi dəqiq bilinmir. Vəfatı: 1194-cü. Əsas əsəri "Divani-hikmət" Əhməd Yəsəvi – XI əsrin məşhur mütəfəkkir-şairi, ortaq türk ədəbiyyatında ilk mütəfəkkirlərdən, türk dilində sufizm ədəbiyyatının ilk yaradıcılarından. Orta Asiya Türkləri arasında İslamı yayan, Anadolunun türkləşməsində və müsəlmanlaşmasında böyük rolu olan Əhməd Yəsəvinin doğum tarixi dəqiq bilinmir. Vəfatı: 1194-cü. Əsas əsəri "Divani-hikmət" 1996-cı il noyabrın 6-8-də Nazirlər Şurası Bakıda özünün VIII iclasını keçirərək sözügedən il üçün nəzərdə tutulmuş tədbirlər planını müzakirə etdi. Bu iclasın əlamətdar cəhətlərindən biri o idi ki, ilk dəfə olaraq Tuva Respublikası və Xakasiya Respublikası müşahidəçi sifəti ilə TÜRKSOY-a qoşulmuşdu. Bundan sonra sıraları həmişə genişlənən və getdikcə daha böyük arenanı əhatə edən TÜRKSOY-un üzvlərinin sayı 12-yə çatmışdı.

1996-cı ilin oktyabrında Daşkənddə keçirilən türkdilli dövlət başçılarının IV sammitində TÜRKSOY-un fəaliyyətinə yüksək qiymət verilmişdi. Eyni zamanda dövlət başçılarının Daşkənd bəyannaməsində qeyd olunmuşdu ki, yaxın dövr ərzində "Türk tarixi və mədəniyyətinin xatirə təqvimi", "Böyük Türk Xa-



qanlığının 1450 illiyinin birgə qeyd olunması proqramı" hazırlansın. Mədəniyyət Nazirləri Şurası bu tapşırığı yerinə yetirmək üçün bütün zəruri tədbirlərin görülməsini vacib hesab etmiş və türkdilli ölkələrin dövlət başçılarının yüksək səviyyəli V sammitinə kimi hər iki proqramın hazırlanması qərara alınmışdı.

Daşkənd bəyannaməsinin müddəalarını rəhbər tutan qurultay türk xalqları arasında qardaşlıq əlaqələrini daha da genişləndirməyə çağıraraq bununla bağlı mühüm qərarlar qəbul etmişdi. Bunların arasında türk dünyası yazıçılarının Bakıda Azərbaycan Yazıçıları Birliyinin nəzdində koordinasiya (əlaqələndirmə) mərkəzinin yaradılması, qurultay materiallarının, həmçinin, 1926-cı ildə Bakıda keçirilmiş I Ümumittifaq türkoloji qurultayının materiallarının çap edilməsi, 1999-cu ilin bütün dünyada "Dədə Qorqud ili" elan edilməsi barədə YUNESKO qarşısında məsələ qaldırılması, türk dünyasında latın qrafikalı əlifbaya keçilməsi ilə əlaqədar real tədbirlər planı hazırlanması, ortaq ədəbi türk dilinin formalaşdırılması üçün tədbirlər həyata keçirilməsi və s. çox mühüm əhəmiyyətə malik idi.

1997-ci ilin 11-15 mayında Türkiyənin Ankara və Karaman şəhərlərində "Türk dili" beynəlxalq bayramı keçirilmişdi. Həmin il iyulun 15 və 17-də gerçəkləşən İssık-Kul Forumu Beynəlxalq Assambleyasında TÜRKSOY-un Baş direktoru P.Bülbüloğlu "Türk mədəniyyəti, milli və qlobal aspektdə: XXI əsrə baxış" mövzusunda məruzə etmişdi. TÜRKSOY-un fəaliyyətinin intensivləşdirilməsi və daha geniş dairəni əhatə etməsi təşkilatın hüquqi bazasını təkmilləşdirilməsini zəruri edirdi. Bu baxımdan işçi qrup tərəfindən hazırlanmış "TÜRKSOY-un fəaliyyət prinsipləri və yaradılması haqqında əsasnamə", "TÜRKSOY-un personalı haqqında əsasnamə", "TÜRKSOY-un maliyyə fəaliyyəti haqqında əsasnamə" uzun müddət mədəniyyət nazirləri tərəfindən müzakirə olunmuş, təklif və iradlar nəzərə alınmaqla IX iclasda qəbul olunmuşdu.

TÜRKSOY-un fəaliyyətinə böyük önəm verən türkdilli ölkələrin dövlət başçıları, demək olar ki, bütün sammitlərin yekun bəyannamələrində təşkilatın işini təqdir etmişlər. Bu baxımdan, TÜRKSOY dövlət başçıları qarşısında məsuliyyət daşıyan orqan kimi də nəzərdən keçirilməlidir. 1996-cı il Daşkənd Bəyannaməsindən irəli gələn vəzifələri yerinə yetirmək üçün mədəniyyət nazirləri az vaxt ərzində mühüm bir layihəni hazırlaya bildilər. Bu layihələrdən birincisi Türk Dünyasının mədəniyyət və incəsənətinə aid olan hadisələr sistemli şəkildə öz əksini tapıb. Bu təqvim eyni zamanda TÜRKSOY-un 1998-2003-cü illərdə həyata keçirməyi nəzərdə tutduğu tədbirlər planı kimi də qiymətlidir. Diqqəti çəkən məqam odur ki,TÜRKSOY-un tarixindəhələ elə bir hal olmayıb ki, bu təqvimdə öz əksini tapmış hər hansı hadisə və ya yubiley qeyd olunmasın.

Həyata keçirilməli olan tədbirlər öz əhəmiyyətinə və miqyasına görə üç kateqoriyaya ayrılır:

1. Beynəlxalq səciyyə daşıyan tədbirlər. Bu qəbildən olan tədbirlər TÜRKSOY-un bütün üzv dövlətləri tərəfindən mütləq qeyd olunur, daha vacibləri isə YUNESKO ilə birgə keçirilir.

2. Regional əhəmiyyət daşıyan tarixləri TÜRKSOY-a daxil olan iki və daha çox üzv ölkələr qeyd edir.

3. Milli əhəmiyyətli tarixlər yalnız bir ölkənin daxilində TÜRKSOY-a üzv olan başqa dövlətlərin iştirakı ilə anılır.

Daşkənd Bəyannaməsindən irəli gələn digər mühüm layihə

Böyük Türk Xaqanlığının 1450 illiyinin keçirilməsi üzrə proqramın hazırlanması idi. TÜRKSOY-un IX iclasının protokolunda göstərilir ki, "dünya tarixinə ilk demokratik dövlət qurumu kimi daxil olan Böyük Türk Xaqanlığının müasir Türk Dünyasının tarixi köklərində və milli təfəkkürün formalaşmasında müstəsna rolu olmuşdur". TÜRKSOY 1997-ci il avqustun 25 və 27-də Tuva Respublikasının Qızıl şəhərində Sibirin türkdilli xalqlarının Böyük Türk Xaqanlığının 1450 illiyinə həsr olunmuş beynəlxalq konfransında iştirak edib.

Yubileylərin, əlamətdar hadisələrin anılması tarixi şüurun yenidən oyanmasına əlverişli zəmin yaradır. Bu qəbildən olan tədbirlərlə yanaşı, TÜRKSOY müxtəlif müsabiqələr, tətbiqi incəsənət nümunələrindən, rəssam işlərindən ibarət sərgilər də təşkil edir. Ankarada 1998-ci ilin oktyabrında keçirilən "Mədəniyyət və incəsənət əsərləri-98" sərgisi həmin ilin oktyabr ayında İstanbul şəhərində təşkil olunan üzv dövlətlərin rəssamlarının əl işlərindən ibarət sərgi diqqəti cəlb edir.

1998-ci ildə TÜRKSOY-un xətti ilə böyük özbək alim və mütəfəkkir Məhəmməd ibn İsmayıl əl Buxarinin və Əhməd əl-Fərabinin xatirəsinə həsr olunmuş elmi simpoziumda bütün türk ölkələrindən gəlmiş elm xadimləri iştirak edirdi. Əbu Abdulla İmam Məhəmməd ibn İsmayıl Buxari ( 810-cu il- 869-cu il) İslam alimi Buxarinin "Camiu`s-Səhih"i (Səhihi Buxari) qələmə alması iki səbəbə bağlıdır. Bunların birincisi, müəlliminin ondan bunu xahiş etməsi, ikincisi isə bunu yuxuda görməsidir. Buxari "Səhih" olaraq adlandırılan və içərisində onun özünə görə səhih olduğu sabit olan hədislərə yer verdiyi kitabında bir çox dini hökmlərin qaynağını göstərməsi ilə İslam dünyasına böyük bir xidmət etmişdir. Buxarinin "Camius-Səhih"i 97 kitabdan 3450 babdan ibarətdir.

Əbunəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan ibn Uzluğ ibn Tərxan Farabi (Əbunəsr Farabi) (bəzi mənbələrdə isə Əbu Nəsr Məhəmməd ibn əl-Fərah əl-Farabi) (təxminən 873-950-ci illərdə yaşaması güman olunur) ensiklopedik alim, İslam dünyasında peripatetik fəlsəfənin inkişafında mühüm xidmət göstərmiş filosofdur. Elmdə Aristoteldən sonra "İkinci müəllim" (əl-Müəllim əs-sani) fəxri adını qazanmışdır. Aristoteldən sonra bütün dövrlərin və xalqların ən böyük filosofu sayılır. Farabi Şərqin İbn Sina və İbn Rüşd kimi dühalarının formalaşmasına birbaşa təsir göstərmişdir. Dövrümüzə qədər 117 kitabı gəlib çıxmışdır Alimin məşhur əsərlərindən biri "Fəzilətli şəhər əhlinin baxışları" adlı kitabıdır. Bu əsərində "İdeal dövlət" konsepsiyasını irəli sürmüşdür. Farabi həmçinin fizikada boşluqların varlığı və onlarin təbiəti haqqında fikir söyləmiş ilk tədqiqatçılardan biri hesab olunur. Müasir ərəb musiqisində istifadə olunan səs sistemini məhz Farabi işləyib hazırlamışdır

Milli Kitabxananın beynəlxalq əlaqələr sistemində bır sıra dünya təşkilatları içərisində TÜRKSOY-la münasibətlər xüsusi yer tutur. Məlumdur ki, bəşər mədəniyyətinin yaradılmasında böyük rolu olan türkdilli xalqlar hər zaman bu mədəniyyətin zənginləşməsinə böyük töhfələr vermiş, daima insan həyatının bütün sahələrində öz istedadını, biliyini, bacarığını göstərmiş, qəhrəmanlıq nümunələri, böyük tarixi-memarlıq abidələri, elmi ixtiraları, qiymətli bədii əsərləri və musiqisi ilə tarixin parlaq səhifələrini yaratmışlar. 1991-ci ildə SSRİ-nin dağılması zəminində türkdilli xalqların müstəqil dövlətləri yarandı. Artıq SSRİ-nin tərkibindən çıxıb müstəqil dövlət kimi fəaliyyətə başlayan bu xalqlar yenidən hər sahədə olduğu kimi elmi, ədəbibədii, mədəni sahələrdə də əlaqələrin gücləndirilməsi uğrunda çalışmağa başladılar. Müxtəlif birliklər və ya təşkilatlar yaradır, onun nəzdində fəaliyyət göstərirdilər ki, Türk Mədəniyyəti və İncəsənətinin İnkişafı Üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) da belə təşkilatlardan idi. TÜRKSOY Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci və 1994-cü illərdə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. Sonralar TÜRKSOY haqqında müqaviləyə müşahidəçi ölkələr simasında Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz Yeri respublikaları da qoşulmuşlar CENL (Conference of European National Librarian-Avropa Milli Kitabxanaçıları Konfransı)Azərbaycan Milli Kitabxanasının beynəlxalq təşkilatlarla əlaqələrində CENL təşkilatı xüsusi yer tutur. CENL – 1987-ci ildə Avropa Şurasının təşəbbüsü ilə yaradılmış və onun dəstəyi ilə fəaliyyət göstərir və 49 Milli Kitabxananı birləşdirir. Bu təşkilata üzv olan kitabxanalar öz ölkələrinin intellektual irsini uzun müddətli ənənəvi və rəqəmsal formada mühafizə etmək məsuliyyəti daşıyır, kitabxana- informasiya işində təhsil və elmi-tədqiqatların aparılmasını dəstəkləyir. CENL-in əsas vəzifəsi vahid informasiya məkanında kitabxanaların birgə və əlaqəli fəaliyyət göstərməsini təmin etməkdən ibarətdir. 2005-ci ildə Azərbaycan Milli Kitabxanası Avropa Milli Kitabxanaçılar Konfransı beynəlxalq təşkilatına üzvlüyə qəbul edilmişdir.

**У.Манафова**

## Международные связи Азербайджанской Национальной Библиотеки имени М.Ф.Ахундова: ТЮРКСОЙ, CENL, IFLA

***Резюме:*** *Международная организация развития турецкой культуры и искусства (ТЮРКСОЙ) Ряд тюркских народов (татары, башкиры, чуваши и др.) значительно расширили права своей национально-территориальной автономии, оставшись в составе Российской Федерации. Это, в свою очередь, предполагало необходимость установления более тесных литературно-культурных, научных и экономических связей между турецкими государственными учреждениями. Вновь созданные благоприятные условия привели к созданию единой организации общетюркской культуры и искусства одного происхождения. Этой организацией является успешно действующая сегодня международная*

*организация ТЮРКСОЙ – Международная организация тюркской культуры, которая является первой международной организацией, созданной среди тюркоязычных стран. После распада Советского Союза остро встали вопросы региональной интеграции турецких государств, получивших независимость. В нашу современную эпоху независимые турецкие государства действуют как по отдельности, так и совместно в многосторонних отношениях, то есть в рамках международных организаций. Это был ожидаемый шаг со стороны Турецкой Республики, которая смогла сохранить свою независимость после распада Османской империи и долгое время существовала как единственное турецкое государство на карте мира, выступить инициатором региональной интеграции. Новые независимые турецкие государства также заинтересованы в использовании опыта Турции, которая успешно интегрировалась в западные институты как в экономическом, так и в политическом плане. В этом смысле деятельность такой организации, как ТЮРКСОЙ, заслуживает внимания.*

**Ключевые слова:** *Национальная библиотека, международные отношения, ТЮРКСОЙ, CENL, IFLA*

**U. Manafova**

**International relations of Azerbaijan National Library named after M.F. Akhundov: TURKSOY, CENL, IFLA**

***Summary:*** *International Organization for the Development of Turkish Culture and Art (TURKSOY) A number of Turkic peoples (Tatars, Bashkirs, Chuvash, etc.) greatly expanded their national-territorial autonomy rights by remaining within the Russian Federation. This, in turn, suggested the need to establish closer literary-cultural, scientific and economic relations between Turkish state institutions. The newly created favorable conditions led to the creation of a single organization of common Turkish culture and art of the same origin. That organization is the international TURKSOY organization that is successfully operating today - the International Organization of Turkish Culture, which is the first international organization established among Turkic-speaking countries. After the collapse of the Soviet Union, the issues of regional integration of the Turkish states that gained their independence became urgent. In our modern era, the independent Turkish states operate both separately and jointly in multilateral relations, that is, within the framework of international organizations. It was an expected step for the Republic of Turkey, which was able to maintain its independence after the collapse of the Ottoman Empire and existed as the only Turkish state on the world map for a long time, to act as the initiator of regional integration. The newly independent Turkish states are also interested in benefiting from the experience of Turkey, which has successfully integrated into Western institutions, both economically and politically. In this sense, the activity of an organization like TURKSOY deserves attention.*

**Key words:** *National Library, international relations, TURKSOY, CENL, IFLA*

***Rəyçi:*** *t.ü.e.dok., prof.* ***X.İ.İsmayılov***